# Doç. Dr. Suqra Hümbətova

## Kişisel Bilgiler

**İş Telefonu:** +994 125643706
**E-posta:** sugra_humbatova@unec.edu.az
**Diğer E-posta:** ms.sugra@mail.ru
**Web:** https://avesis.unec.edu.az/sugra_humbatova

**Uluslararası Araştırmacı ID'leri**
ScholarID: gPisQu0AAAAJ
ORCID: 0000-0002-9380-941X
Publons / Web Of Science ResearcherID: AAH-3495-2020
ScopusID: 57204258198

## Biyografi

1979-cu ildə Bakı şəhərində anadan olub.

1996-cı ildə biologiya-kimya təmayülü ilə "Zəngi" liseyini əla qiymətlərlə bitirib.

2000-ci ildə Azərbaycan Dövlət İqtisadiyyat İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) bakalavr pilləsini "İqtisadiyyatın tənzimlənməsi" ixtisası "Qiymətin əmələ gəlməsi" ixtisaslaşması üzrə fərqlənmə diplom ilə bitirib.

2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin magistr pilləsini "İqtisadiyyatın tənzimlənməsi" ixtisası "Qiymətin əmələ gəlməsi" ixtisaslaşması üzrə fərqlənmə diplom ilə bitirib.

2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində "Daxili bazarın qorunması və iqtisadi təhlükəsizliyinin təmin olunmasında qiymət amilindən istifadə yolları" mövzusunda dissertasiya işini 5308.01 şifrəsi "Ümumi iqtisadiyyat" ixtisası üzrə müvəffəqiyyətlə müdafiə etmiş, Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının qərarı ilə iqtisad üzrə fəlsəfə doktoru dərəcəsinə layiq görülmüşdür.

2014-cü ildən "Aqrar bazarda tədiyyə qabiliyyətli tələbin artırılması istiqamətləri" mövzusu üzrə İqtisad elmləri doktoru proqramı üzrə doktorantdır.

2001-2014-cü illərdə "Qiymət və qiymətləndirmə" kafedrasının baş laborantı işləmişdir.

2014-2018-ci illər ərzində "Qiymət və qiymətləndirmə" kafedrasında müəllim vəzifəsində çalışmışdır.

2018-ci ildən 2019-cu ilin sonunadək Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin "İqtisadiyyat və idarəetmə" kafedrasının baş müəllimi vəzifəsində çalışmışdır. 07.01.2020-ci il tarixdən həmin kafedranın dosenti vəzifəsinə keçirilmişdir. Eyni zamanda "İqisadiyyat", "Statistika", "Sənayenin təşkili və idarə olunması" ixtisasları üzrə proqram rəhbəri olmuşdur.

Tədris etdiyi fənlər siyahısında "Ali Mikroiqtisadiyyat", "Ali Makroiqtisadiyyat", "Dövlət sektorunun iqtisadiyyatı", "Tədqiqat metodları", "Akademik Yazı", "Qiymət və dövlətin antiinhisar siyasəti", "Qiymət və qiymətləndirmə", "İnvestisiya layihələrinin qiymətləndirilməsi" yer almışdır.

2017-2019-cu illərdə UNEC-in SABAH Qruplarında "Qiymət və qiymətləndirmə" fənni tədris etmişdir.

2017-ci ildə UNEC-in "Gənc Müəllimlər Şurası"nın idarə heyətinin üzvü, 2018-ci ildə UNEC "Gənc Alimlər Şurası"nın üzvü seçilmişdir.

2016-2019-cu illərdə UNEC-in "Keyfiyyət elçisi" olub.

2011-ci ildə "Heydər Əliyev və Müstəqil Azərbaycanın 20 illik Sosial-İqtisadi İnkişafı" mövzusunda Respublika Elmi Məqalə Müsabiqəsində Doktorantlar arasında I yerə layiq görülmüş və mükafatlandırılmışdır.

2017-ci ilin noyabrında UNEC-də "Elm aylığı" çərçivəsində professor-müəllim heyəti, doktorant, gənc tədqiqatçı, magistr və tələbələr arasında keçirilən elmi məqalə müsabiqəsində III yeri tutmuşdur.

2017-ci il Türkiyə Respublikasının İsparta şəhərində UNEC ilə Süleyman Demirel Universitetinin birlikdə təşkilatçılığı ilə "II Beynəlxalq İqtisadi və İnzibati Perspektivlər: Dayanıqlı Qlobal Rəqabət (İnternational Economic and Administrative Perspectives (CİEP) Sustainable Global Competition)" mövzusunda beynəlxalq konfransda "Azərbaycanda rəqabət yönümlü iqtisadiyyatın formalaşmasında (istehlak və tədiyyə qabiliyyətli) tələbin rolunun təhlili" mövzusunda məruzə ilə çıxış edib.

2018-ci ildə Türkiyə Respublikası İstanbul Universitetində UNEC-in təcrübə proqramında iştirak etmişdir.

2018-ci ildə Türkiyənin İstanbul şəhərində Uluslararasi Stratejik ve Sosyal Araştırmalar Sempozyumunda məruzə ilə çıxış etmiş və bölmə moderatoru olmuşdur.

2020-ci il 5-6 iyunda Türkiyənin İstanbul şəhərində keçirilən "4th International Management and Social Research Conference" mövzusunda beynəlxalq konfransa məruzə təqdim etmişdir.

2017-ci ildə "Web of Science" elmmetrik bazadan istifadənin əsasları UNEC, Clarivate Analytics;

2018-ci ildə "Elmi-tədqiqat işlərinin əsas nəticələrinin beynəlxalq nüfuzlu nəşrlərdə dərc olunması mexanizmi" UNEC, Clarivate Analytics;

2018-ci ildə "Müasir müəllimin fərdi işçi planının (Syllabus) tərtibi" Azərbaycan Respublikası Təhsil Nazirliyi, ADA Universiteti, SABAH Mərkəzi;

2020-ci ildə UNEC-in təşkilatçılığı ilə "Distant təhsildə tədrisin təşkili və metodiki təminat" mövzusunda;

2021-ci il mayın 6-da Elsevier-in təşkilatçılığı ilə "Best practices for submitting to Lancet journals and open access options" mövzusunda təşkil olunan və ixtisası üzrə bir sıra digər təlimlərdə iştirak etmiş və sertifikatlar qazanmışdır.

2019-cu ildə UNEC-in təşkilatçılığı ilə British Council-ın keçirdiyi "Academic Writing" kursunu müvəffəqiyyətlə bitirmiş və Aptis imtahan nəticəsi olaraq B2 səviyyə sertifikatı qazanmışdır.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Professor-müəllim heyətinin differensial əmək haqqı sistemi"ndə 2017/2018-ci tədris ilində 5-ci, 2018/2019-cu tədris ilində 8-ci, 2019/2020-ci tədris ilində 3-cü, 2020/2021-ci tədris ilində 6-cı, 2021/2022-ci tədris ilində 8-ci yerdə qərarlaşmışdır.

Hirsch İndex – 9, məqalələrinə istinad sayı – 242, i10 indeksi 9-dur.

2001-ci ildən Azərbaycan və ölkədən kənarda o cümlədən, Web of science, Scopus bazasında indeksləşdirilən elmi jurnallarda nəşr olunan məqalələr (25 məqalə) də nəzərə alınmaqla 100 elmi əsərin (o cümlədən, metodik göstərişlər və 1 dərslikdə həmmüəlliflik) müəllifidir.

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin Elmi Şurasının üzvü, UNEC FD 1.11 Dissertasiya Şurasının nəzdində elmi seminarın üzvüdür.

İxtisas şifrinə uyğun olaraq 4 iqtisad üzrə fəlsəfə doktoru proqramı istiqamətində dissertant və magistratura səviyyəsi üzrə 25-qədər magistranta elmi rəhbərlik etmişdir.

2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (EİF), Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (ICESCO) Böyük Zəfər Günü və Dünya Elm Günü ilə əlaqədar təşkil etdiyi və keçirdiyi "Elmdə Zəfər mükafatı-2021" müsabiqəsinə təqdim olunan "Do High Oil Prices

Obstruct the Transition to Renewable Energy Consumption?" elmi tədqiqat işinə görə II yerə layiq görülmüşdür.

2021-ci ildə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı" ilə təltif olunmuşdur.

02.09.2022-ci il tarixdən "İqtisadiyyat" kafedrasının müdiri vəzifəsinə təyin edilmişdir.

Ailəlidir, iki övladı var.

## Araştırma Alanları

Kalkınma İktisadı ve İktisadi Büyüme

## Metrikler